HEYDƏR ƏLİYEV:

HÜQUQİ DÖVLƏTİN BANİSİ

***1993**-cü ildə xalqın təkidli xahişi ilə ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev iyunun 15-də Milli Məclisdə proqram xarakteli çıxışında müstəqil Azərbaycanın gələcək inkişafının əsas istiqamətləri kimi demokratik dövlət quruculuğunu, azad iqtisadiyyatı və qanunun aliliyini vacib şərtlər olaraq irəli sürürdü. Həmin ilin oktyabrında Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə 1991-ci ildə qəbul olunmuş Dövlət Müstəqilliyi Aktında əks olunan ideya və prinsiplərin gerçəkləşməsi üçün real zəmin yarandı. Heydər Əliyev dövlət başçısı olduğu on il ərzində Azərbaycanın hüquq islahatlarının banisi kimi missiyanı şərəflə yerinə yetirdi.*

Ulu öndərin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən hüquqi islahatları iki mərhələyə bölmək olar. Birinci mərhələdə siyasi və hüquqi islahatların konsepsiyası işlənib hazırlandı və həyata keçirildi. Bu mərhələnin məqsədi dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında əks olunan ideya və prinsiplərin əsasında işlək siyasi-hüquqi mexanizmin yaradılması idi. Təbii ki, həmin mexanizmin təməlində müstəqil dövlətin yeni konstitusiyası durmalı idi. 1995-ci il mayın 2-də Konstitusiya Komissiyası yaradıldı. Prezident Heydər Əliyevin rəhbərlik etdiyi Komissiyanın və İşçi Qrupunun tərkibinə ali və mərkəzi dövlət hakimiyyəti orqanlarının nümayəndələri ilə yanaşı, ictimai xadimlər, elm adamları da daxil idi. Dövlət başçısı Konstitusiya layihəsinin müzakirələrinə şəxsən rəhbərlik etmiş, təklif və iradların incələnməsinə, geniş ictimaiyyətin bu prosesdən kənarda qalmamasına şərait yaratmışdı.

1995-ci il noyabrın 12-də ümummilli liderin təşəbbüsü və gərgin fəaliyyəti nəticəsində müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Demokratik cəmiyyətin qurulması, fəaliyyəti və inkişafı üçün bütün müddəaları özündə əks etdirən yeni Konstitusiya Azərbaycanda hüquqi dövlətin təməlini qoymaqla yanaşı, hüquqi islahatların ikinci mərhələsinin aparılmasına etibarlı zəmin yaradırdı.

Konstitusiyada müəyyən edilmiş norma və prinsiplərə uyğun hüquqi sistemin formalaşmasına hədəflənən islahatların ikinci mərhələsi məzmun baxımından iki istiqaməti əhatə edirdi. Onlardan birincisi, insan hüquq və azadlıqlarının, qanunçuluq və hüquq qaydasının səmərəli müdafiəsi üçün zəruri olan təsisatların, ikincisi isə həmin təsisatların işini effektiv edəcək qanunvericilik bazasının yaradılması idi.

İslahatların ikinci mərhələsini uğurla həyata keçirmək üçün 1996-cı il fevralın 21-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə Hüquqi İslahatlar Komissiyası yaradıldı. İşə başlamazdan əvvəl Komissiya hüquqi islahatların prioritetlərini özündə müəyyən etdi. Komissiyanın işi qanunların və digər normativ hüquqi aktların hazırlanması, məhkəmə və bütövlükdə hüquq-mühafizə sisteminin yenidən qurulması, əhalinin hüquq düşüncəsinin və cəmiyyətin hüquq mədəniyyətinin səviyyəsinin yüksəldilməsi, hüquqi informasiyanın axtarılması və istifadəsi sisteminin təkmilləşdirilməsi kimi tədbirləri ehtiva etməli idi. Bununla da, ölkəmizin hüquq sistemində Sovet İttifaqından miras qalmış prinsip, norma və institutlar aradan qaldırılmalı, mütərəqqi inkişafa və beynəlxalq aləmə hüquqi inteqrasiya prosesi güclənməli idi.

Komissiya tərəfindən hazırlanmış ilk əhəmiyyətli normativ aktlar kimi 1997-ci ildə qəbul olunan "Məhkəmələr və hakimlər haqqında" və "Konstitusiya Məhkəməsi haqqında" qanunlar xüsusilə qeyd olunmalıdır. Bu qanunlar məhkəmə sisteminin qurulmasına və işə başlamasına şərait yaratdı, həmçinin 1995-ci il Konstitusiyasının əsas institutlarından biri kimi konstitusiya nəzarəti institutunu işlək mexanizmə çevirdi. "Məhkəmələr və hakimlər haqqında" qanun ümumi və ixtisaslaşdırılmış məhkəmə orqanlarının yeni sisteminin təşkilati əsaslarını müəyyən edərək məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının məhkəmədə müdafiəsi təminatlarının gücləndirilməsi, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etdi.

"Konstitusiya Məhkəməsi haqqında" qanun isə ölkəmizin məhkəmə sistemində tamamilə yeni bir orqanın - başlıca məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsindən ibarət olan Konstitusiya Məhkəməsinin təşkili və fəaliyyəti üçün mühüm hüquqi baza oldu. Həmin qanunla Məhkəmənin konstitusion səlahiyyətləri bir daha təsdiq olundu və göstərildi ki, onun əsas funksiyaları qanunların və digər normativ aktların, Ali Məhkəmənin qərarlarının, bələdiyyə aktlarının, beynəlxalq müqavilələrin Konstitusiyaya uyğunluğunun yoxlanılması, Konstitusiyanın və qanunların şərh edilməsi, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsindən ibarət olmalıdır. Bu qanun, dünyada, ilk növbədə, Avropa ölkələrində formalaşmış mütərəqqi hüquqi təcrübəni mənimsəməklə, ölkəmizdə konstitusiya nəzarəti orqanının təşkili və fəaliyyətinin əsaslarını, Konstitusiya Məhkəməsi hakimlərinin statusunu, Konstitusiya Məhkəməsində icraatın prinsiplərini, habelə ayrı-ayrı icraat növlərinin həyata keçirilməsi qaydalarını müəyyən etdi.

1997-ci ildə qəbul edilmiş "Məhkəmələr və hakimlər haqqında" Qanunla üçpilləli müstəqil məhkəmə sistemi təsbit olunduqdan və mühakimə icraatının ümumi prinsipləri, standartları müəyyən edildikdən sonra qarşıda dayanan digər mühüm vəzifə hazırlıqlı və peşəkar hakimlər korpusunun formalaşdırılmasından ibarət idi. Bu məqsədlə, 1 dekabr 1998-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Məhkəmə-Hüquq Şurası yaradıldı və ilk dəfə olaraq hakimlərin test üsulu ilə seçilməsinə dair qərar qəbul edildi. Qısa müddət ərzində aparılan lazımi hazırlıq, texniki, təşkilati problemlərin həllindən sonra 2000-ci ildə ilk dəfə yeni sistem üzrə hakimlərin seçilməsi və məhkəmə orqanlarının komplektləşdirilməsi həyata keçirildi. Hakimlərin seçimi üzrə keçirilmiş şəffaf müsabiqə nəticəsində əvvəlki hakim korpusunun 60 faizə qədəri yeniləndi, 2000-ci ilin sentyabr ayından yeni üçpilləli məhkəmə sisteminin fəaliyyətə başlamasına şərait yaradıldı.

Məlum olduğu kimi, istənilən məhkəmə-hüquq islahatının əsas məzmunu təkcə məhkəmə quruluşu və mühakimə icraatının təkmilləşdirilməsini deyil, eyni zamanda məhkəmələrlə əlaqəli olan hüquq-mühafizə orqanları sisteminin yenidən qurulmasını da tələb edir. Ötən əsrin sonunda postsovet məkanında ən çox müzakirə olunan məsələlərdən biri köhnə sovet prokurorluğunun islah edilməsi və onun sırf dövlət maraqlarına xidmət edən qurumdan insan hüquqlarını və azadlıqlarını, demokratik, hüquqi dövlət dəyərlərini mühafizə edən orqana çevrilməsi yolları barədə idi.

1999-cu ildə qəbul edilən "Prokurorluq haqqında" qanunla prokurorluğun yeni sosial-iqtisadi münasibətlərin inkişafına mane olan bir sıra funksiyaları - məhkəmələr üzərində nəzarət və ümumi nəzarət funksiyaları ləğv olundu, həmçinin onun mülki işlərə müdaxilə etməsi imkanları da məhdudlaşdırıldı. Digər tərəfdən, insan hüquq və azadlıqlarının qorunması baxımından həssas olan bir sıra əməliyyat-axtarış tədbirlərinin və prosessual hərəkətlərin prokurorun sanksiyası ilə həyata keçirilməsi qaydası da ləğv edildi, onun yerinə müvafiq tədbirlərin və hərəkətlərin qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verilməsi müəyyən olundu. Təbii ki, müstəqil Azərbaycanın qanunvericiliyində ilk dəfə olaraq ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi də Heydər Əliyevin bilavasitə tapşırıq və göstərişlərinin icrasının nəticəsi idi.

Prokurorluq orqanları ilə yanaşı, polis və penitensiar xidmət orqanlarında da eyni istiqamətdə islahatlar aparıldı. Belə ki, prokurorluq haqqında qanunla eyni vaxtda, yəni 1999-cu ildə polisin fəaliyyətində insan hüquq və azadlıqlarını təmin etmək məqsədilə "Polis haqqında" qanun qəbul edildi. Bu qanuna görə, polis orqanlarının əsas vəzifəsi ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması, habelə yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində fəaliyyət göstərməkdən ibarət olmalıdır. Qanunla polis fəaliyyəti üzərində nəzarət mexanizmləri təsis edildi, polis əməkdaşlarının hüquqazidd hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət etmək hüququ təsbit olundu. Keçmiş SSRİ respublikaları arasında ilk dəfə ölkəmizdə cəzaçəkmə müəssisələri, istintaq təcridxanaları Daxili İşlər Nazirliyinin tərkibindən çıxarılaraq Ədliyyə Nazirliyinin tabeliyinə verildi. 1995-ci Konstitusiyası qəbul edildikdən sonra isə məhkəmə qərarlarının, həmçinin cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasını təmin edən məhkəmə icraçıları xidməti yaradıldı. Bununla bağlı ayrıca qanun 1999-cu ildə qəbul edildi.

Məhkəmə-hüquq islahatlarının çoxcəhətliliyi və çoxistiqamətliliyi təkcə müvafiq dövlət orqanlarının və idarələrinin deyil, eyni zamanda ədalət mühakiməsi sahəsində fəaliyyət göstərən, şəxsiyyətin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi ilə məşğul olan qurumların statusunun nizamlanmasını da tələb edirdi. Buna görə də, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatlar çərçivəsində, yuxarıda qeyd olunan vacib normativ aktlarla birlikdə, yeni "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun qəbulu zərurətə çevrildi. Həmin qanun hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquq və mənafelərinin müdafiəsini həyata keçirmək üçün seçdiyi vəkilə müraciət etməsinə, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etməsinə, fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsinə, onlara yüksəkkeyfiyyətli hüquqi yardım göstərilməsinə imkan yaratdı. Digər tərəfdən, ölkəmizdə aparılan hüquqi islahatlar çərçivəsində dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsinə də xüsusi diqqət ayrılmağa başlandı. Bununla bağlı müstəqil məhkəmə hakimiyyətinin gücləndirilməsilə yanaşı, mütərəqqi məhkəmədənkənar mexanizmlərin qurulmasına da şərait yaradıldı. Belə mexanizmlərdən biri ombudsman təsisatı idi. Təsisatın statusu və səlahiyyətlərinin tam və hərtərəfli müəyyən olunması məqsədilə 2001-ci ildə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilli (ombudsman) haqqında Konstitusiya qanunu qəbul edildi. Bununla da demokratik dövlətlərin hüquq sistemində mühüm rol oynayan bu institut ölkəmizdə qeyri-məhkəmə müdafiə mexanizmi kimi fəaliyyət göstərməli və bütövlükdə insan hüquqlarının güclü təminatçılarından biri kimi çıxış etməli idi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquq islahatlarının mühüm tərkib hissələrindən biri də hüquq sisteminin fəaliyyət göstərməsi üçün ictimai münasibətlərin müxtəlif sahələrini əhatə edən mühüm qanunvericilik aktlarının hazırlanması və qəbul edilməsi idi. Bu istiqamətdə qısa müddət ərzində Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, Əmək, Ailə, İnzibati Xətalar, Gömrük, Vergi və digər Məcəllələri, "Notariat haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" və digər qanun layihələri hazırlanaraq hüquq ictimaiyyətinin müzakirəsinə təqdim olundu. Həmin qanunvericilik aktlarının layihələrinin müzakirəsi təkcə əlaqədar qurum və təşkilatların deyil, müvafiq sahəvi mütəxəssislərin, hüquqşünas-alimlərin iştirakı ilə gərgin müzakirələr və fikir mübadiləsi şəraitində keçirilirdi. Onu da xüsusilə qeyd etmək lazımdır ki, mühüm normativ sənədlərin hazırlanması və qəbulu prosesinə nüfuzlu beynəlxalq təşkilatların ekspertləri, elm ocaqlarının nümayəndələri geniş surətdə cəlb olunurdu. Bu prosesə bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurası və ATƏT qatılırdı.

Bu, Azərbaycanın ümumavropa hüquq məkanına inteqrasiyasına və Avropa Şurasına tamhüquqlu üzvlüyünə gedən prosesə dəyərli töhfə idi. Ölkəmizin hüquq sistemindəki mütərəqqi dəyişikliklərin nəticəsi olaraq Azərbaycan Respublikası 2001-ci il yanvarın 25-də Avropa Şurasına üzv qəbul edildi, Avropa İnsan Hüquqları Konvensiyasına qoşuldu və bununla da, Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasını qəbul etdi. Bütün bunlar Avropa standartlarına cavab verən yeni qanunların qəbul edilməsi, milli qanunvericiliyin təkmilləşdirilməsi prosesini daha da sürətləndirdi, sosial-iqtisadi, mədəni inkişaf üçün əlverişli şəraitin yaradılması, dövlət və yerli idarə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, korrupsiyaya qarşı mübarizənin normativ və institusional əsaslarının möhkəmləndirilməsi üçün əsas oldu.

Avropa Şurasına üzv qəbul edildikdən sonra qısa müddət ərzində Azərbaycan digər mühüm Avropa Konvensiyalarına da qoşuldu. Qeyd etmək lazımdır ki, bu dövrdə ümumavropa hüquqi məkanı çərçivəsində başlanmış sıx əməkdaşlıq, həmçinin Avropa Şurasının müxtəlif qurum və təşkilatlarını da - Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunu (GRECO), Avropa Şurasının Venesiya Komissiyasını, Avropada İrqçilik və Dözümsüzlüyə Qarşı Komissiyanı (ECRİ) əhatə etdi. Görülən səmərəli təşkilati-hüquqi tədbirlər nəticəsində həmin qurumlar və təşkilatlarla uzunmüddətli əməkdaşlığın əsası qoyuldu.

İnsan hüquq və azadlıqlarının təmin olunması sahəsində atılan beynəlxalq hüquqi addımlarla yanaşı, onlara müvafiq milli hüquqi tədbirlər planı da hazırlanmalı idi. Prezident Heydər Əliyevin imzaladığı 1998-ci il 22 fevral tarixli "İnsan hüquq və azadlıqlarının müdafiəsinə dair" fərmanı və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq olunması barədə 1998-ci il 18 iyun tarixli sərəncamı ölkəmizdə insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmlərinin formalaşdırılmasını sürətləndirdi. Bu fərman Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, BMT-nin İnsan Hüquqlarına dair Ümumi Bəyannaməsinin qəbul edilməsinin 50 illiyi ərəfəsində ölkəmizdə demokratiyanın daha da inkişaf etdirilməsi və insan hüquqlarını qorumaq sahəsində görülən tədbirlərin genişləndirilməsi məqsədilə respublikanın ali dövlət hakimiyyəti orqanlarına, insan hüquqları üzrə müvəkkilə (ombudsmana) bir sıra tövsiyələr və tapşırıqlar verirdi.

Dövlətin öz üzərinə götürdüyü mühüm beynəlxalq hüquqi öhdəliklərin yerinə yetirilməsi istiqamətində görülən tədbirlər sırasında 2002-ci il avqustun 24-də keçirilmiş referendum nəticəsində Konstitusiyaya dəyişikliklərin edilməsi, habelə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya Qanununun qəbul edilməsi xüsusilə qeyd olunmalıdır. Bu tədbirlərin həyata keçirilməsinin əsas qayəsi ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi, insan hüquqlarının daha etibarlı milli təminatı mexanizminin yaradılması, məhkəmə islahatları ilə bağlı dəyişikliklərin daha da möhkəmləndirilməsi, dövlət idarəçiliyi sisteminin hakimiyyət bölgüsü prinsipinin tələblərinə uyğunlaşdırılması, dövlətin idarə edilməsi prosesinin optimallaşdırılması ilə bağlı olmuşdur. Referendum nəticəsində Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərdən ən vacib olanları hər kəsin məhkəmə müdafiəsi hüququnun möhkəmləndirilməsi, Ombudsmanın Konstitusiya Məhkəməsinə müraciət etmək səlahiyyətlərinin, eləcə də sıravi vətəndaşların pozulmuş konstitusion hüquq və azadlıqlarının təmin olunması üçün Konstitusiya Məhkəməsinə müraciət etməsi imkanlarının təsbitindən ibarət idi. Bununla, Konstitusiya Məhkəməsinin səlahiyyətləri genişləndi, onun Konstitusiyanın hüquqi mühafizəsi sistemində əhəmiyyəti artmış oldu. Digər tərəfdən, 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən, qanunçuluq və hüquq qaydasının təmin edilməsində mühüm rol oynayan prokurorluğa da digər dövlət orqanları ilə yanaşı, qanunvericilik təşəbbüsü hüququ verildi.

İnsan hüquqlarına dair milli norma və standartların Avropa İnsan hüquqları Konvensiyasına uyğunlaşdırılması məqsədilə 2002-ci ilin dekabrında "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Konstitusiya qanunu da qəbul edildi. Həmin qanun ölkəmizdə əsas hüquq və azadlıqların təsbitini möhkəmləndirməklə yanaşı, onların realizəsi üçün mühüm mexanizmləri də müəyyənləşdirmiş oldu.

İslahatların səmərəliliyini və sonrakı dövrlər üçün əhəmiyyətini göstərən mühüm xüsusiyyətlərdən biri məhkəmə-hüquq sisteminin humanistləşdirilməsi meyli idi. Bunun əsas göstəricilərindən biri kimi 1995-ci ildən etibarən amnistiya və əfvetmə institutlarının geniş şəkildə tətbiqidir.

İlk dövrdə respublikamızda amnistiya ilə bağlı xüsusi qanunvericilik aktı olmasa da, Heydər Əliyevin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim etdiyi amnistiya qərarları layihələri xüsusi ictimai təhlükə kəsb etməyən məhkumların azadlığa buraxılmaları təmin edirdi. Bütövlükdə, 1995-2003-cü illərdə dövlət başçısının təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi yeddi "Amnistiya haqqında" qərar 60 mindən artıq şəxsə şamil edilmişdi.

Humanizm, insan hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ölüm hökmünün təyini və icrası məsələlərinə münasibətdə də öz əksini tapıb. Hüquq islahatlarının başlanğıc fazasında ölüm hökmünün icrası üzərində moratorium qoyulmuş, daha sonra isə qanunla onun tətbiqinin əsasları əhəmiyyətli dərəcədə məhdudlaşdırılmışdı. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə müraciət əsasında qəbul edilmiş "Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Cinayət, Cinayət-Prosessual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında" 10 fevral 1998-ci il tarixli qanunla ölüm hökmü tamamilə ləğv edilmişdir.

Beləliklə, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən hüquqi islahatların ikinci mərhələsində demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatların yaradılması ilə yanaşı, mövcud hüquq-mühafizə sistemi fəaliyyəti təkmilləşdirildi, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırıldı. Eyni zamanda, beynəlxalq hüquqi prinsiplərə və hüquqyaratmanın müasir, mütərəqqi tələblərinə uyğun qanunlar və məcəllələr də qəbul edildi. Başqa sözlə, sistemlilik və kompleksli yanaşma aparılmış islahatların əsas, başlıca məziyyətlərindən biri oldu.

Hüquqi islahatların mühüm xüsusiyyətlərindən biri də onların geniş ictimai müzakirələrlə müşayiət olunmasıdır. Təsadüfi deyil ki, bütün əhəmiyyətli, fundamental qanunvericilik aktları müvafiq dövlət orqanları ilə yanaşı, ictimaiyyətin, kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə təşkil edilən müzakirələrdə nəzərdən keçirilmiş, onların məzmunu ilə bağlı fikir mübadilələri aparılmışdır. Bu günün özündə də həmin mütərəqqi ənənə davam edir, ictimaiyyəti narahat edən hüquqi problemlərlə bağlı səlahiyyətli dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə hüquqşünas-alimlərin vaxtaşırı görüşləri keçirilir.

Bu gün böyük qürur hissi ilə qeyd edə bilərik ki, ümummilli lider Heydər Əliyevin gərgin əməyi, qətiyyəti, möhkəm siyasi iradəsi sayəsində müasir Azərbaycanın demokratik və hüquqi dövlətçilik standartlarına cavab verən məhkəmə və hüquq sistemləri qurulmuşdur. Aparılan islahatların səmərəliliyinin, gərgin əməyin bəhrəsinin əsas göstəricilərindən biri bu yolun uğurla davamıdır. Ümummilli lider Heydər Əliyev tərəfindən başlanılan məhkəmə-hüquq islahatları prosesi Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin müəyyən etdiyi siyasi kurs çərçivəsində ardıcıllıqla və müvəffəqiyyətlə davam etdirilir.

Rövşən İSMAYILOV,
Azərbaycan Respublikası
Konstitusiya Məhkəməsinin hakimi,
Əməkdar hüquqşünas.